# GÖRKƏMLİ ŞƏXSİYYƏTLƏR MƏDİNƏ GÜLGÜN HAQQINDA

Sevgidə sədaqət, əhdə vəfa, həyat eşqi, insanın ucalığı, ana qadın qəlbinin minbir əsrarlı kəhkəşanı övlad məhəbbəti, sülh, əmin-amanlıq arzuları, vətən duyğusu və s. Mədinə Gülgünün şeirlərində həmişə öz əksini tapmışdır.

***Bəkir Nəbiyev,***
***akademik***

...Onlar dünyadakı saysız cütlüklər kimi sadəcə ər-arvad olmadılar. Mədinə ilə Balaş bir-birinə həm mübarizə yoldaşı, həm könül dostu, həm də qələm sirdaşı idilər.

Qələm yoldaşı deyil, məhz sirdaşı. Çünki Balaşın yazdıqlarının ilk oxucusu Mədinə xanım, Mədinə xanımın qələm təcrübələrinin birinci məhrəm münsifi Azəroğlu idi.

***Rafael Hüseynov,***
***akademik***

Gülgün həmişə kövrək, həmişə ilhamlıdır. Onun qəlbində vətən həsrəti, analıq duyğuları, mübarizə eşqi, bir vəhdət təşkil edir. Ürəyində belə gözəl duyğular yaşadan şairənin yolu daim yüksəlişədir!

***Mirvarid Dilbazi,***
***Xalq şairi***

Mədinə çox mərd, xeyirxah, kövrək ürəkli, insanlara çox tez uyuşan, xoşsöhbət, yaxşılıqdan zövq alan bir qız idi. Mən hələ Təbrizdə onunla ilk tanışlığımdan bunları hiss etmişdim. Ona qarşı qəlbimdə oyanan ilk hisslər Mədinənin bu keyfiyyətlərindən doğmuşdu və məni ona bir qohumluq münasibətindən də çox bağlamışdı.

***Balaş Azəroğlu,***
***Xalq şairi***

Mədinə xanım kövrək xanımdır. Bəlkə də, şeirlərindəki səmimilik belə bir ürəyə sahib olduğundandır.

***Nəriman Həsənzadə,***
***Xalq şairi***

Mədinə Gülgün “arzuları şirin” o ana ehtirası ilə: “Mən inanıram, bir gün Ərkin sinəsinə əbədi gün düşəcək. Gün düşəcək...” – deyir.

***Elçin,***
***Xalq yazıçısı***

Mədinə Gülgünün yaradıcılığında ürəyin poetik vurğuları ilə poetik anları qovuşmuşdur. Bu yaqradıcılıq lirik ruh, inqilabi çağırış, həyat eşqi, sevgidə vəfa və ayrılığın həzin pıçıltıları ilə mənalıdır.

***Söhrab Tahir,***
***Xalq şairi***

Mədinə Gülgünün yaradıcılığı ilə tanış olduqca,vətənpərvərliyin bizə tanış hər elementini görə, hər notunu eşidə bilərik.

***Tahir Əhmədalılar,***
***yazıçı-publisist***